DOI:10.30546/gdu.3.2024

**UOT:94.(479.24).**

# 1993-CÜ İL YENİ AZƏRBAYCAN PARTİYASININ SİYASİ TƏŞKİLAT KİMİ FORMALAŞDIĞI DÖVRDÜR

***Doktorant Şükürova Günay Bəhruz***
***Sumqayıt Dövlət Universiteti***
sukurovag@list.ru

**Xülasə:** *Yeni Azərbaycan Partiyasının 1993-cü ildə bölgələrdə ilk təşkilatlarının yaranması üçün keçirilən təsis konfransları haqqında məqalədə məlumat verilir. Yeni Azərbaycan Partiyasının üzvlərinin sayının sürətlə artması əhalinin Heydər Əliyevə olan böyük inamının ifadəsi idi ki, bu da 1993-cü ilin iyunun 15-də Heydər Əliyevin 2-ci dəfə xalq tərəfindən Azərbaycan rəhbərliyinə gətirilməsi ilə nəticələndi.*

**Açar sözlər:** siyasi, təşkilatlanma, partiya, Naxçıvan, fenomen, idarəçilik
**Ключевые слова:** политическая организация, партия, Нахчыван, явление, администрация.
**Key words:** political, organization, party, Nakhchivan, phenomenon, administration

Partiya anlayışı siyasi termin olaraq latın dilindəki "partis" sözündən götürülüb hissə, qrup mənasını verir. Siyasi partiya xalqın müəyyən bir hissəsinin maraqlarını ifadə edən və hakimiyyətə yiyələnməyi özünün əsas məqsədi sayan həmfikirlərin, eyni dəyərləri, ideyaları bölüşənlərin təşkilatıdır. Bəzi politoloqların yanaşmasına görə partiya seçkilərdə fəal iştirak edən, öz namizədlərini dövlət idarələrinə keçirmək imkanına malik olan siyasi qrup kimi xarakterizə olunur. Digər qrup siyasətçilərin fikrincə isə partiya zamanca fasiləsiz fəaliyyət göstərən təşkilat olub xalqın köməyi ilə hakimiyyəti ələ keçirmək və saxlamaq üçün lazım olan funksionerlər qrupudur.

Hələ e.ə. IV əsrdə siyasi təşkilatlar olaraq meydana gələn [1, 48] partiyaların son formalaşma mərhələsi XIX – XXI əsrlərlə bağlıdır [2, 135]. Əgər son mərhələnin ilk formalaşan partiyası İngiltərənin bu gün ən nüfuzlu siyasi təşkilatlarından olan "Liberal" partiya hesab olunursa, bu mərhələnin ən sonuncu və güclü təşkilatı isə II minillikdən III minilliyə keçid dövründə meydana gələn, xalqının bütünlüklə etimadını qazanmaqla bənzərsizlik qazanan siyasi partiya Yeni Azərbaycan partiyasıdır. Yeni Azərbaycan partiyasının qısa zaman ərzində təşəkkül tapıb məşhurlaşmasında onun sədri, Ümummilli lider Heydər Əliyevin rolu danılmazdır. Ulu öndərin sərf etdiyi gərgin əməyin və hədsiz səylərin nəticəsində Naxçıvanda yaranmış YAP-ın Müstəqil Azərbaycan Respublikasının avanqard partiyasına çevirildiyi dövr XX əsrin 90-cı illərinin I yarısına təsadüf edir.

Görkəmli ictimai siyasi xadim Heydər Əliyevin rəhbərliyi və verdiyi göstərişlər əsas olmaqla XX əsrin 90-cı illərinin I yarısında yalnız Naxçıvanda deyil, suveren Azərbaycan dövlətinin digər region və bölgələrində də YAP-ın təşkilatlanması işi sürətli gedir, mobil xarakter alması ilə yadda qalırdı [3 ]. Onu da qeyd edək ki, Naxçıvan diyarı istisna olmaqla YAP-ın Azərbaycan rayonları üzrə ilk təsis konfransı Bilasuvarda keçirilmişdi. 1993-cü ilin 12 yanvar tarixində partiya fəalları Ş.Əsgərov və A.Əsgərov Biləsuvar rayonunda yerli əhalinin təkid və istəyi əsasında YAP-ın təsis konfransını keçirmişdilər [4, 83-95 ]. Şahbuz bölgəsində YAP-n təşkilatlandığı gün Azərbaycan respublikasının ən böyük rayonlarından biri, Qarabağın dilbər guşəsi kimi tarixi ədəbiyyatda yad edilən Bərdədə də YAP-ın təsis konfransı keçirilmiş bu haqda partiyanın mərkəzi qərargahının yerləşdiyi Naxçıvana və onun əvəzolunmaz sədri H.Əliyevə müfəssəl məlumatlar çatdırılmışdı. Şahbuz və Bərdə rayonları üzrə təsis konfranslarından cəmi bir gün sonra Azərbaycanın cənub regionunun mərkəzi Lənkəranda da YAP-ın partiya olaraq fəaliyyətə başlaması son dərəcə sevindirici bir hal idi.

DOI:10.30546/gdu.3.2024

Bu tarixi hadisə əslində YAP-ın Naxçıvandan adlayıb bütün Azərbaycanı siyasi nüfuz dairəsi altına almağa başlamasının göstəricisi idi. Bu mühüm, əlamətdar hadisə həmçinin YAP-a bütün Azərbaycan xalqının Heydər Əliyevin şəxsində xilaskar siyasi təşkilat kimi baxmağa başlamasının da təsdiqi idi. Bu tarixi gün həm də YAP-ın ölkədə oturuşmuş bir siyasi orqana çevirilməyə başlamasının da sübutu idi.

Azərbaycanın paytaxtı Bakıya gəldikdə burada da, ayrı-ayrı şəhər rayonları üzrə YAP-ın təsis konfransları sürətlə keçirilməkdə idi. Bakıda Heydər Əliyevçilərin ən çox toplaşdıqları məkan Elektrotexnika İnstitutunun binasında yerləşən YAP-ın qərargahı idi. Heydər Əliyevçilərin səyləri, yaratdıqları təşəbbüs qruplarının gərgin əməyi nəticəsində 1993-cü ilin fevral ayının 13-də Bakının Xətai, həmin ayın 20-də Yasamal, martın 7-də isə Binəqədi kimi böyük, çoxsaylı əhaliyə malik rayonlarında da YAP-ın təsis konfransları keçririlmişdi.

Azərbycan bölgələri üzrə də YAP-ın siyasi cəhətdən təşkilatlanması prosesi olduqca sürətlə gedirdi. Bunu 1993-cü ilin 20 fevral təqvim günündə Qusar, Beyləqan rayonlarında, Bakıdan sonra Azərbaycanın ikinci böyük sənaye və istehsal ocağı kimi tanınan Sumqayıtda, 21 fevralda Cəlilabadda, 26 fevralda Xızıda, 27 fevralda Zaqatalada, 2 martda Xanlarda, 6 martda Şirvan bölgələrində; Şamaxı, İsmayıllı və Göyçayda, həmçinin Şəkidə, Masallıda, 7 martda isə Yardımlı və Balakəndə YAP-ın təsis konfranslarının keçirilməsi reallıqları təsdiqləyirdi. Bu mühüm amil, 1993-cü ildə Azərbaycanın 67 şəhər və rayonları üzrə YAP-ın təşkilatlanması faktı ilə də öz təsdiqini tapırdı. XX əsrin 90-cı illərinin I dövründə ölkə üzrə 1500-ə qədər kənd və qəsəbədə YAP-ın ilk özəkləri yaranmış, uğurla fəaliyyət göstərməyə başlamışdı. 1993-cü ildə Yeni Azərbaycan Partiyasında təmsil olunan üzvlərin sayının 130 mini nəfəri ötüb keçməsi faktı bu partiyanın Ulu öndərin başçılığı altında qısa zaman kəsiyində ölkəni düçar olduğu bütün bəlalardan xilas edəcəyinə bir işarət idi [4, s.395-414]. 1992-ci ilin noyabr ayının 21-də çağırılmış YAP-ın təsis konfransına toplanan 7250 nəfər üzvün say etibarı ilə 1993-cü ildə 130 min nəfəri ötüb keçməsi gerçəkliyi bu vaxta qədər dünya üzrə az-az siyasi təşkilata nəsib olan böyük bir uğura imza atıldığını da göstərirdi [5, s.27].

Əlbəttə YAP-ın nüfuzlu partiya kimi həm ölkə miqyasında, həm də dünya arenasında belə bir təsəvvürəgəlməz böyük uğurlara imza atması heç də asan başa gəlməmişdi. Təəccüb doğuran ən mühüm cəhət o idi ki, Heydər Əliyev fenomeninə qısqanclıqla yanaşan AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu bir dövrdə YAP avanqard siyasi təşkilata çevirilməyi bacarmışdı. Hansı ki, mövcud iqtidar YAP-ın təsis konfransının qarşısını almaq üçün hər cür naqis əməllərə əl atmaqdan çəkinməmişdi. O, Bakıda YAP-ın təsis konfransının qarşısını almaqla kifayətlənməmiş, Naxçıvanda da onun baş tutmasına mane olmaq, yaranacaq güclü və qüdrətli bir siyasi partiyanın banisini, ümummilli lider Heydər Əliyevi fiziki cəhətdən aradan götürmək üçün diyarda dövlət çevrilişinə belə cəhd göstərmişdi [6, s.33]

AXC-Müsavat cütlüyünün iqtidarda olduğu qısa zaman kəsiyində yürütdüyü naşı və yarıtmaz daxili, eləcə də xarici siyasət nəticəsində Azərbaycan Respublikasının digər regionları günbəgün dibigörünməz uçuruma yuvarlanırdı. Naxçıvan Muxtar Respublikasında isə bu dövrdə həyata keçirdiyi islahatların, qonşu dövlətlərlə ictimai-siyasi münasibətlərin tənzimlənməsi və iqtisadiyyatda, sosial-mədəni həyatda qazanılan müsbət keyfiyyətli dəyişikliklərin fonunda Heydər Əlirza oğlunun nüfuzu durmadan artırdı. Bu böyük şəxsiyyətin respublikada siyasi idarəçiliyi ələ alması tələbi ilə israrla çıxış edən ümumxalq hərəkatları şəhər və rayonları bürüməkdə idi.. Heydər Əliyev fenomenindən qorxan AXC və Müsavat liderləri müxtəlif ağılasığmaz, dəhşət saçan cəhdlərə əl atır, hətta Naxçıvanı birdəfəlik məhv etməklə Heydər Əliyev “problemini” aradan qaldırmağa belə çalışırdılar...Bu azmış kimi onlar Naxçıvan Muxtar Respublikasını yalançı seperatçılıqda günahlandırmaqla

DOI:10.30546/gdu.3.2024

onun muxtariyyətini də ləğv etməyə cəhd göstərirdilər [7, s.312]. Lakin Naxçıvan əhalisinin ümummilli lideri təhlükədən xilas etmək üçün uşağından böyüynə qədər yalın əllə iqtidar təmsilçilərinə müqavimət göstərməsi bu naqis cəhdlərin qarşısını almışdı. YAP-ın təsis konfransından sonra Naxçıvan mərkəz olmaqla partiyanın sürətlə təşkilatlanmağa başlanması amili də mövcud iqtidarı son dərəcə narahat etməkdə idi. Elə bunun nəticəsi idi ki, AXC-nin 1992-ci ilin 8 dekabr tarixində keçrilən II Fövqəladə qurultayında H.Əliyevin fiziki cəhətdən məhvinə çağırışlar səsləndirilmişdi. Hətta İ.Həmidov H.Əliyevin fiziki cəhətdən məhvi ilə bağlı aşağıdakı fikri irəli sürməkdən belə çəkinməmişdi: "Nə durmusuz, gəlin minək təyyarəyə, uçaq Naxçıvana, Heydər Əliyevə iki güllə vurub qayıdaq. Bununla da problem həll olunsun" [8, s.42]. Yeni Azərbaycan Partiyasının qurucusu, dahi şəxsiyyət Heydər Əliyevin partiyanın Naxçıvan dövründə həyata keçirdiyi işlərin məcmusunu onun Azərbaycan xalqına yönəlmiş xilaskarlıq missiyasının tərkib hissəsi kimi qiymətləndirsək heç də yanılmarıq .

Yeni Azərbaycan Partiyasının tarix səhnəsində görünməsi ilə qısa bir müddət ərzində xalqın etimadını qazanan yeganə siyasi təşkilata çevirilməsi amili nəinki, Azərbaycanda və keçmiş sovetlər birliyinə daxil olan ölkələrdə, hətta dünya miqyasında da böyük əks-səda doğurur, bütün bunlar mətbuat səhifələrində obyektivcəsinə işıqlandırılırdı. Ümummili liderdən Rusiya Fedrasiyasının nüfuzlu mətbuat orqanı "Nezavismaya" qəzetinin müxbirinin YAP-ın məqsədi və roluna dair aldığı müsahibənin Şərq qapısı qəzetinin 1993-cü il 27 tarixli sayında dərc olunması Azərbaycan əhalisinin Heydər Əliyev fenomeninə inam və etmadını daha da gücləndirmişdi. Həmin müsahibədə Heydər Əliyev qurucusu olduğu YAP-ı parlament tipli partiya adlandırmaqla yanaşı onun konstruktivlik, səriştəlilik, professonalıq və qanunçuluq prinsiplərinə söykəndiyini bəyan etmiş, eyni zamanda partiya sıralarına dinindən, milli-etnik mənşəyindən asılı olmayaraq müxtəlif millətlərin, etnos və etniklərin; rus, yəhudi, talış, ləzgi, kürd, avar, və başqalarının da daxil olduğunu bildirmişdi. Hətta bu tarixi müsahibədən sonra radikal müxalifət liderləri də, öz mətbu orqanları səviyyəsində YAP-a uğurlar diləyir, onun qısa zaman kəsiyində əldə etdiyi nailiyyətə, başlıcası xalqın etimadını qazanmasına müsbət yanaşaraq münasibət bildirirdilər. 1993-cü ilin yanvar ayından etibarən YAP-ın mətbu orqanı kimi nəşrə başlayan "Yeni Azərbaycan" qəzetinin səhifələrində də partiyanın əməli fəaliyyətinə, başlıcası Heydər Əliyevin müxtəlif daxili və xarici siyasət yönümlü işlərinə dair məqalə və müsahibələr dərc olunmaqda idi [9, s.121].

Bu dövrdə Heydər Əliyev yalnız YAP-ın lideri kimi deyil, bütün Azərbaycan xalqının yol göstərəni, ümid yeri kimi tanınırdı. O, öncəgörənliyi ilə Azərbaycan xalqını yaxınlaşmaqda olan böyük fəlakətlərdən qurtarmağın yollarını da mövcud iqtidara tarixi müsahibələrində anlatmaqda idi [10, s.349].

Ümummilli lider Naxçıvanda olduğu müddətdə YAP-da təmsil olunan partiya fəalları və əsrin siyasi təşkilatı ilə həmrəylik nümayiş etdirən çoxsaylı eloktoradla birlikdə dövlət quruculuğu işlərini uğurla həyata keçirməkdə idi. Bu dövrdə Heydər Əliyev, AXC-Müsavat cütlüyünün diplomatik gedişlərdə buraxdığı bağışlanılmaz səhvləri üzündən Azərbaycanla İran İslam Respublikası, Rusiya Federativ dövləti arasında pozulmuş əlaqələri Naxçıvanın timsalında bərpa etməklə də məşğul idi. SSRİ-nin süqutundan sonra Orta Asiyada yaranmış Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tacikistan respublikaları ilə Azərbaycan arasında çoxşaxəli əməkdaşlığın təməli də Naxçıvanda qoyulurdu. Əslində Naxçıvanın timsalında qurulan bu xarici əlaqələr Azərbaycan Respublikasının Heydər Əliyev dönəmində həyata keçirəcəyi balanslaşdırılmış xarici siyasət kursunun təməl daşı və bönövrəsi idi.

Dünya şöhrətli siyasətçi Heydər Əliyev, tezliklə quracağı Müstəqil Azərbaycan dövlətinin balanslaşdırılmış xarici siyasət doktrinasının Naxçıvanda təməl daşını qoyması fonunda 1992-ci ilin avqustunda İran İslam Respublikasına rəsmi səfər etmiş, sosial-iqtisadi, ticari-mədəni sferalarda qarşılıqlı əməkdaşlığa dair bir çox sənədləri imzalamışdı. Bu

DOI:10.30546/gdu.3.2024

qarşılıqlı əməkdaşlığa dair müxtəlif sferalarda imzalanmış rəsmi sənədlər tezliklə öz bəhrəsini vermiş, həm daxildən həm də xaricdən iqtisadi blokadaya alınmış Naxçıvana Cənubi Azərbaycanın döyünən ürəyi Təbrizdən 300 ton un və digər zəruri ərzaq məhsulları, xeyli miqdar yanacaq göndərilmişdi. Böyük öndərin səyləri və gərgin əməyi nəticəsində 1992-ci ilin noyabır ayının sonlarında - YAP-ın qurulmasından təxminən bir neçə gün sonra Muxtar Respublikanı elektrik enerjisi ilə təmin edəcək 40 meqavatlıq "İran-Naxçıvan" elektrik xətti istifadəyə verilmişdi. 1992-ci ilin 3 dekabr tarixində isə Naxçıvan MR-lə İran İslam Respublikasını birləşdirən Şahtaxtı-Poldaşt məntəqəsinin təntənəli açılışı olmuşdu. 1993-cü ilin mart ayının 16-sı tarixində İİR-də rəsmi səfərdə olan Ulu öndər Naxçıvan MR-lə İİR arasında 1992-ci ilin 24 avqustunda bağlanmış müqavilədən irəli gələn bir sıra cari məsələlərin həyata keçirilməsinə nail olmuşdu. Dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyev bu tarixi səfəri zamanı Azərbaycanın qopub ayrılmış bir parçası-Təbrizə də getmiş Xudafərin-Culfa istiqamətində çəkilən yolun vəziyyətini öyrənmişdi. Bununla yanaşı o, 1993-cü ilin may ayında Naxçıvan MR-lə İİR-nın Qərbi Azərbaycan Ostondarı arasında 10 maddədən ibarət müqavilənin imzalanmasına da nail olmağı bacarmışdı. Həmin müqaviləyə əsasən İran tərəfi il ərzində diyardan 300 nəfərin Məşhədə ziyarətə getməsinin təşkilini, sahibsiz, kimsəsiz adamların bir qisminə ərzaq yardımı göstərilməsini, Babək və Şərur rayonlarında sosial problemlərin həlli məqsədi ilə çörək məmulatı, ticarət mallarının satışının təşkil edilməsini, televiziya sahəsində verilişlərin yayınlanmasını, Naxçıvan məktəblərinə kitab və dərs ləvazimatlarının verilməsini, diyara vaxtlı-vaxtında dərman pereparatlarının, tibbi ləvazimatların, quru südün göndərilməsinin təminini, bronxial xəstələr üçün ayrılmış xəstəxana binasının təmirini və avadanlıqlarla təchizini öz üzərinə götürürdü [8, s.197].

Ümummilli lider YAP-ın Naxçıvan dövründə "İki dövlət bir millət" siyasətinin bünövrəsini qoyaraq Türkiyə Cumhuriyyəti ilə də Naxçıvan arasında da sıx əməkdaşlığa nail olmuşdu. Lakin istər Azərbaycanda, istərsə də Naxçıvanda bu iki qardaş dövlət arasında səmimi münasibətlərin inkişafını istəməyən qüvvələr az deyildi. Onlar ümummilli liderin gördüyü işlərin böyüklüyünü onları kölgə altına almaq üçün hər cür çirkin vasitələrə əl atır, bu istiqamətdə hədyan, böhtan dolu yazıları mətbuat səhifələrinə belə çıxardırdılar. Ulu öndər bu yalan və böhtanlara tutarlı cavab olaraq 1921-ci ildə Türkiyə ilə Sovet Rusiyası arasında bağlanmış Moskva və Qars müqavilələri [11, s.211-217] çərçivəsində Naxçıvanın siyasi statusunu möhkəmləndirməkdə idi. YAP-ın sədri isə öz tolerantlığını, ucalığını nümayiş etdirməklə bu hədyanlara məhəl qoymur, gələcəkdə qurucusu olacağı müstəqil və müasir Azərbaycan dövlətinin balanslaşdırılmış xarici siyasətinin konturlarını geopolitik baxımdan regionun ən güclü dövləti sayılan Rusiya ilə mövcud iqtidar arasında ikincinin diplomatik səriştəsizliyi üzündən pozulmuş münasibətləri bərpa etməklə cızırdı.

1993-cü ilin iyun ayının 1-də Bakıya səfər etmiş Rusiya-Azərbaycan Dostluq Cəımiyyətinin sədri N.K.Baybakovun Naxçıvana gəlib H.Əliyevlə Azərbaycanla Rusiya arasında dostluq münasibətlərinin genişləndirilməsinin zəruriliyi haqqında danışıqlar aparması bir çox mətləblərdən xəbər verirdi. Bu tarixi hadisə həm Rusiya səlahiyyətlisi N.K.Baybakovun Bakıda AXC-Müsavat iqtidarı ilə apardığı danışıqlardan razı qalmamasına dəlalət edirdi. Bu diplomatik gedişi həm də Rusiyalı səfirin Azərbaycanın siyasi müstəqilliyinə sözün həqiqi mənasında nail olmağı qarşısına əsas məqsəd qoymuş YAP-ın sədri, səriştəli dövlət xadimi kimi tanıdığı Heydər Əliyevin Rusiya-Azərbaycan münasibətlərini də yoluna qoyacağına inamdan doğan bir vəziyyət kimi dəyərləndiririk. Azərbaycanda gedən bütün ictimai-siyasi prosesləri diqqət mərkəzində saxlayan Kremlin sözcüsü Azərbaycan xalqının mövcüd iqtidarı deyil Ümummilli lideri dəstəklədiyini də yaxşı bilirdi. Moskva Heydər Əliyev fenomeni əsas olmaqla tezliklə regionunun Azərbaycan kimi müstəqil və güclü bir dövləti ilə bütün sferaları əhatə edən beynəlxalq normalara uyğun,

DOI:10.30546/gdu.3.2024

bərabərhüquqlu müqavilələrə imza atacağı onların da yaxında olduğunu da dərk etməkdə idi. N.K.Baybakovun Naxçıvana yönələn diplomatik səfərindən bir neçə gün sonra ATƏT-in Minsk qrupundakı Rusiya təmsilçisi V.N.Kamirovun Naxçıvana gəlib H.Əliyevlə danışıqlar aparması faktı da Azərbaycanla Rusiya Federasiyası arasında münasibətlərin qurulmasında Moskvanın diplomatik güc mərkəzi kimi mövcud iqtidarın qərar tutduğu paytaxt Bakıya deyil, Ulu öndərin timsalında artıq Naxçıvana üstünlük verməsinə dəlalət edirdi.

1991-ci ildə SSRİ-nin süqutundan sonra dünya siyasətində aparıcı rol oynamağa başlayan ABŞ da hələ YAP-ın Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə Heydər Əliyev fenomeninin gücünü və qüdrətini, xalqının bu böyük siyasətçiyə necə dərin inam bəsləməsini, yekdilliklə ölkə başçısı kimi onun hakimiyyətə gəlməsi uğrunda dönmədən mübarizə aparmasını diqqətlə izləməkdə idi. YAP kimi aparıcı, konstruktiv bir siyasi partiyanın fəaliyyətə başlaması, ona dünyanın aparıcı dövlət xadimlərindən olan Heydər Əliyevin başçılıq etməsi amili də Ağ evin nəzər diqqətini cəlb etməyə bilməzdi. Hələ 1991-ci ildən etibarən ABŞ səlahiyyətlilərinin Naxçıvana vaxtaşırı səfərlər edib Ümummilli liderlə görüşlər keçirməsi faktları ABŞ diplomatiyasının Heydər Əliyevin tezliklə müstəqil Azərbaycan Respublikasının rəhbəri olacağına inamından irəli gəlirdi. ABŞ-ın Naxçıvana humanitar yardımlar göstərməsi, 1992-ci ilin iyununda Azərbaycandakı səfiri Riçard Mayisı Naxçıvana göndərməsi faktlarını oturuşmuş ABŞ diplomatiyasının uzaqgörənliyinin nəticəsi kimi dəyərləndiririk. YAP-ın yaradılmasından cəmi iki ay sonra-1993-cü ilin yanvar ayının 20-də ABŞ Prezidenti Bill Klintona Ümummilli lider tərəfindən eyni vaxtda iki rəsmi məktubun ünvanlanması Azərbaycanla ABŞ arasında diplomatik yazışmaların əsasının qoyulmasına dəlalət edən fakt kimi də qiymətləndirilir. Bu diplomatik yazışmalar özünü çox gözlətməmiş, 1993-cü ilin mart ayında ABŞ Naxçıvana 1 millyon dollar dəyərində, 10 ton həcimində dava-dərman göndərmişdi. Ulu öndərin səyləri nəticəsində BMT Təhlükəsizlik Şurası Naxçıvan MR-ə 1993-cü ilin fevral ayında humanitar yardım göndərilməsi haqqında qərar qəbul etmişdi. Ümummilli lider 1993-cü ilin fevral ayında İngiltərənin, həmin ilin mart ayında isə Fransanın salahiyyətliləri ilə görüşərək onları Naxçıvanının acınacaqlı durumu ilə bağlı məlumatlandırmış, bununla da hər iki dövlətin Muxtar Respublikaya humanitar yardım göstərməsini təmin etmişdi.

Ulu öndər zəngin həyat təcrübəsinə istinadən yaxşı anlayırdı ki, bu humanitar yardımlar hesabına Muxtar Respublikada həyat şəraitini yaxşılaşdırmaq, əhalinin yüksək rifah halını təmin etmək mümkün deyildir. Bunun üçün yerli əhalini daimi iş yerləri ilə təmin etmək, insanların humanitar yardımdan asılılığına son qoymaq lazımdır. Elə bu baxımdan da Azərbaycanda Respublika miqyasında aqrar torpaq islahatının aparılması məsələsi Ümummilli lider tərəfindən ilk dəfə Naxçıvanda rəsmən qaldırılmışdı. Hələ 1992-ci ilin 24 fevral tarixində aqrar islahat aparılmasının zəruriliyinə dair məsələ müzakirəyə çıxarılmış, bu müzakirənin nəticəsində 1992-ci ilin mart ayının 15-nə kimi Azərbaycan Respublikasının Torpaq Məcəlləsi əsas olmaqla torpaq haqqında qanunun hazırlanıb Naxçıvan MR Ali Məclisinə təqdim edilməsi haqqında qərar qəbul edilmişdi. 1992-ci ilin 6 aprel tarixindən etibarən zorakı yolla əsası hələ 1920-ci ildə - sovet üsul-idarəsi dövründə qoyulmaqla kəndlinin maddi marağını məhv etmiş kolxoz və sovxoz təsərrüfatlarının ləğv edilməsi və onlara məxsus əmlakın kollektiv təsərrüfatları təmsil edən ailələr arasında bölüşdürülməsi işlərinə Azərbaycan Respublikasında ilk dəfə Naxçıvanda start verilmişdi. Ulu öndər 1992-1993-cü illərdə qış fəslinin sərt keçməsi ilə əlaqədar kəsilmiş ağacları bərpa etmək məqsədi ilə 1993-cü ili Naxçıvanda "Yaşıllaşdırma ili" elan etməsi baxımından bu istiqamətdə respublika miqyasında ilk addım atması ilə də pioner olmuşdu. O, Naxçıvan diyarı KİV-lərinə yaşıllaşdırma ilə bağlı təbliğat və təşviqatı genişləndirmək haqqında xüsusi göstəriş verməsi ilə də yadda qalmışdı [ 12, s.198-207].

DOI:10.30546/gdu.3.2024

Ümummilli lider Naxçıvanda olarkən Naxçıvan Ali Məclisinin və Yeni Azərbaycan Partiyasının sədri kimi Azərbaycan xalqının dini-dünya görüşünə, milli mənəvi sərvətlərinə diqqətlə, çox həssaslıqla yanaşır, onların inkişafına və ümumxalq malına çevrilməsinə xüsusi qayğı göstərirdi. Bu böyük şəxsiyyətin səyləri nəticəsində, 1993-cü ilin yanvar ayının 7-də Əli Əlihssəlamın mübarək doğum günü təntənəli olaraq Naxçıvanda keçirilmişdi. Şimali Azərbaycanla Cənubi Azərbaycan arasında mənəvi körpü rolunu oynayan, böyük Azərbaycan şairi M.H.Şəhriyarın adını əbədiləşdirən Şəhriyar Konkresinin bir həftə müddətinə Naxçıvan şəhərində keçirilməsi də Heydər Əliyev dühasının Azərbaycan mədəniyyətinə nə qədər böyük qiymət verməsinin, ehtiram və hörmətlə yanaşmasının qabarıq göstəricisi kimi dəyərləndirilir.

Sonda belə qənatə gəlirik ki, Ulu öndər Heydər Əliyevin sədri olduğu Yeni Azərbaycan Partiyası XX əsrin 90-cı illərinin I yarısında, hələ iqtidarı təmsil edən siyasi təşkilata çevrilməzdən əvvəl Azərbaycan xalqının sonsuz etimadını qazanmış avanqard bir partiya kimi həm ölkə miqyasında, həm də beynəlxalq arenada qəbul edilməkdə idi.

### *Ədəbiyyat*


1. Бердяев, Н. Философия неравенства. Москва, - 1990. - 624 s.
2. İbrahimli, X. C. Politologiya. Bakı: Qanun, - 2008. 225 s.
3. Əliyev, Q. O günlər əsil tarix yaranırdı...//İnam yolu. -1997, 28 may-5 iyun. – s. 2.
4. Əsgərov, Ş. YAP və dövlət quruculuğu unikal keçid. Yeni Azərbaycan partiyası və müstəqil Azərbaycan: Milli və hüquqi dövlət quruculuğu strategiyası. Bakı: Azərbaycan, I bölmə. – 2002. - 468 s.
5. Əliyev, Q. YAP-Ümumxalq partiyası. Yeni Azərbaycan partiyası 15 il Yüksəliş yollarında. Bakı, - 2007. - 699 s.
6. Nağıyev, Ə. Ümid körpüsündən Bakı-Ceyhana qədər. Yeni Azərbaycan partiyası və müstəqil Azərbaycan: Milli və hüquqi dövlət quruculuğu strategiyası. Bakı: Azərbaycan, I bölmə, - 2002. - 468 s.
7. Azərbaycan tarixi. – c. 7. Bakı: Elm, – 2003. - 628 s.
8. Əliyev, Q. Müasir Azərbaycanın banisi, xilaskarı, qurucusu. Bakı: Şəms, - 2006. - 520 s.
9. Həsənov, Ə., Mirzəzadə, A. Yeni Azərbaycan partiyası. Yaranması, formalaşması və əsas fəaliyyət istiqamətləri. Bakı: Azərbaycan, - 2002. - 200 s.
10. İsmayılov, S. Yeni Azərbaycan Partiyasının Heydər Əliyev dühası ilə başlayan qalibiyyət yolu. Yeni Azərbaycan partiyası və müstəqil Azərbaycan: Milli və hüquqi dövlət quruculuğu strategiyası. Bakı: Azərbaycan, I bölmə. – 2002. - 468 s.
11. Qafarov, V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı: Azərnəşr, - 2011. - 474 s.
12. Rəhimzadə, A. Tarixin hökmü, zamanın səsi. Yeni Azərbaycan partiyası. 15 il yüksəliş yolunda. Bakı, I bölmə. -2007. - 699 s.

DOI:10.30546/gdu.3.2024

## 1993 YEAR AS THE PERIOD FORMATION NEW AZERBAIJAN PARTY AS POLITİCAL ORQANIZATION

***Shukurova Gunay Behruz***

***Summary***

The article covers information about the founding conferences of the New Azerbaijan Party held in 1993 for the creation of the first organizations in the regions. The rapid increase in the number of members of the New Azerbaijan Party was an expression of the people's great reliance on Heydar Aliyev, that resulted in Heydar Aliyev being elected to the leadership of Azerbaijan for the second time on June 15, 1993.

## 1993 ГОД –ПЕРИОД ФОРМИРОВАНИЯ НОВОЙ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ КАК ПОЛИТИЧЕСКОЙ ОРГАНИЗАЦИИ

***Шукурова Гюнай Бехруз***

***Резюме***

В статье представлены сведения об учредительных конференциях партии «Ени Азербайджан», проведенных в 1993 году для создания первых организаций в регионах. Быстрый рост числа членов партии «Ени Азербайджан» стал выражением большой зависимости народа от Гейдара Алиева, в результате чего 15 июня 1993 года Гейдар Алиев был избран во второй раз в руководство Азербайджана.

***Rəyçi:  dosent Elmar Xəlilov***

***Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının 27.03.2024-cü il tarixli iclasın 08 saylı protokolu***

***Daxil olma tarixi 18 sentyabr 2024-cü il***